BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2010

# CİNAYƏT MƏCƏLLƏSİNİN ÜMUMİ HİSSƏSİNİN MÜDDƏALARI ƏSASINDA İŞTİRAKÇILIĞIN TÖVSİFİ MƏSƏLƏLƏRİ

**N.K.ƏLİYEV**
***Azərbaycan MEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu***
*nazim–aliyev @ mail.ru*

*Cinayətdə iştirakçıların məsuliyyəti onların hər birinin cinayətin törədilməsində faktiki iştiraklarının xarakterindən və dərəcəsindən asılı olaraq müəyyən edilir. Məqalədə cinayəti törətməkdən könüllü imtina etmə, başa çatmayan iştirakçılıq, icraçının cinayət törətməkdən könüllü imtina etməsi zamanı iştirakçıların əməllərinin tövsifi məsələləri araşdırılır, cinayət qanunvericiliyinin təkmilləşdirilməsinə yönələn təkliflər verilir.*

Cinayət hüququ nəzəriyyəsində cinayət məsuliyyətinə cəlb etmə, əməlin tövsifi anlayışlarından çox zaman eyni mənalı terminlər kimi istifadə olunur. Belə ki, CM-nin 33-cü maddəsi iştirakçıların əməllərinin tövsifi məsələlərini nizama salsa da, «Cinayətin iştirakçılarının məsuliyyəti» adlanır. Hesab edirik ki, terminologiyaya səthi yanaşmaq düzgün sayıla bilməz, bu ifadələr kifayət qədər bir-birinə yaxın və əlaqəli olsalar da, eyni mənalı deyillər. Terminlərin birmənalılığı hüquqi düşüncənin dəqiq və aydınlığına, son nəticədə isə qanunçuluğa kömək edir. Fikrimizcə, əməlin tövsifi daha çox şəxsin hər hansı bir cinayətin törədilməsində təqsirinin, məsuliyyət anlayışı isə törədilmiş ictimai təhlükəli əməlin cinayət-hüquqi nəticələrinin müəyyən edilməsi ilə əlaqəlidir.

Cinayətdə iştirakçıların əməllərinin tövsifi CM-nin 33-35-ci maddələrində müəyyən dərəcədə nizamlanmışdır. Ümumən cinayətin iştirakçılarının əməllərinin tövsifini iki qrupa ayırmaq olar:

1. CM-nin Ümumi hissəsində iştirakçılıq institutunun təsbitindən doğan ümumi məsələlər.
2. CM-nin Xüsusi hissəsində iştirakçılıq institutunun təsbitindən doğan spesifik məsələlər.

Təqdim etdiyimiz məqalədə biz birinci qrup məsələlərdən bəhs edəcəyik. Fikrimizcə, bu istiqamət üzrə aparılan elmi araşdırma zamanı açıq qalan suallardan biri iştirakçılıqla bağlı hansı nəzəriyyəni (aksessor, yoxsa başqa) qəbul etməyimizdir. N.F.Kuznetsova göstərmişdir ki, iştirakçılığa dair aksessor nəzəriyyə müəyyən dərəcədə köhnəlsə də, onu nə ilə və necə əvəz etmək, icraçı olmayan iştirakçılığı hansı qaydada tövsif etmək problemi hələ həll olunmamışdır (5, 161). Qüvvədə olan CM-də bu suala birmənalı olmasa da, dolayısı ilə cavab verilmişdir. Belə ki, CM-nin 33.1-ci maddəsinə görə cinayətin iştirakçılarının məsuliyyəti onların hər birinin cinayətin törədilməsində faktiki iştiraklarının xarakterindən və dərəcəsindən asılı olaraq müəyyən edilir. Başqa sözlə, qanun cinayətin iştirakçılarının məsuliyyətinin icraçıdan mexaniki asılılığı nəzərdə tutmur.

Lakin elə suallar vardır ki, qanunda onların cavabı ya ümumiyyətlə verilməmiş, ya da natamam verilmişdir: məsələn, baş tutmayan təhrikçilik və ya cinayət törətməkdən könüllü imtina etmə zamanı iştirakçıların əməllərinin töfsifi məsələləri. Cinayət hüququ nəzəriyyəsində bu suallara cavab verilməyə səylər göstərilmişdir. Məsələn, qeyd edilmişdir ki, baş tutmayan təhrikçilikdə, yəni subyektin başqa şəxsi cinayət törətməyə sövq etməyə nail ola bilməməsi zamanı təhrikçinin məsuliyyəti cinayətə hazırlığa və CM-nin Xüsusi hissəsinin müvafiq maddəsinə görə yaranır. İcraçı cinayəti törətməkdən könüllü imtina etdikdə isə təşkilatçı, təhrikçi və köməkçinin cinayətə hazırlığa görə məsuliyyəti yaranır (7, 211).

Fikrimizcə, burada aşağıdakı məsələni nəzərdən qaçırmaq olmaz. CM-nin 28.2-ci maddəsinə əsasən yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq cinayət məsuliyyətinə səbəb olur. İştirakçılıq isə ağır və xüsusilə ağır cinayətlərlə yanaşı, həm böyük ictimai təhlükə törətməyən, həm də az ağır cinayətlərdə mümkündür. Ona görə də, qeyd edilən situasiyada əməlin tövsifinin iştirakçılıq ilə deyil, başa çatmayan cinayət institutunun müddəaları əsasında həyata keçirilməsi göstərilən kateqoriya cinayətlərin törədilməsində iştirak edən digər iştirakçıların (icraçıdan başqa) məsuliyyətdən kənarda qalmalarına gətirib çıxara bilər. Bəzi müəlliflər bundan çıxış yolu kimi iştirakçılığın yalnız ağır və xüsusilə ağır cinayətlərlə məhdudlaşdırılmasını təklif edirlər (13, 303). Belə mövqenin prinsipial şəkildə səhv olduğunu qeyd edirik. Çünki bu mövqe böyük ictimai təhlükə törətməyən və az ağır kateqoriya cinayətlərin törədilməsində icraçıdan başqa digər növ iştirakçıların məsuliyyətə cəlb olunmalarını istisna edir. Hesab edirik ki, iştirakçıların əməllərinin tövsifi məsələsi törədilən cinayətin ağırlıq dərəcəsindən asılı olmalı deyildir.

Digər tərəfdən, belə mövqe iştirakçılıq institutunun mahiyyətinə də ziddir. İştirakçılıqda mübahisəli məsələ onun törədilmiş əməlin ictimai təhlükəlilik dərəcəsindən asılılığı deyil, əmələ psixi münasibətin formasıdır. Belə ki, ehtiyatsızlıqdan törədilən cinayətlərdə iştirakçılığın mümkünlüyü məsələsi uzun illərin müzakirə mövzusu olsa da, bu gün də həmin məsələdə birmənalı mövqe yoxdur. Eyni zamanda, qanunverici tərəfindən cinayətlərin təsnifatının, yəni ağırlıq dərəcəsinə görə kateqoriyaya bölgüsünün heç də həmişə əməlin xarakteri və ictimai təhlükəlilik dərəcəsinə görə deyil, çox zaman subyektiv mülahizələrlə həyata keçirildiyini nəzərdən qaçırmaq lazım deyildir. Milli hüquq ədəbiyyatımızda bu məsələ artıq ayrıca tədqiqat mövzusu olduğundan, ona toxunmuruq (8).

Cinayət törətməkdən könüllü imtina etmə cinayətə hazırlıq və cinayət etməyə cəhdə görə cinayət məsuliyyətini aradan qaldıran hal sayılır. Cinayət hüququnda «stimullaşdırıcı» norma kimi tanınan cinayət törətməkdən könüllü imtina etmənin əsas təyinatı başlanmış, lakin başa çatdırılmamış cinayəti dayandırmağa nail olmaq, onun qarşısını almaqdan ibarətdir. Qanunverici belə normanın köməyi ilə şəxsi başlamış olduğu, lakin başa çatdırmadığı cinayətdən könüllü əl çəkməyə vadar etmək məqsədini güdür (3, 368).

Cinayət törətməkdən könüllü imtina etmə zamanı iştirakçıların əməllərinin tövsifində müxtəlif variantlar mümkündür. Onlardan biri – digər iştirakçıların cinayəti törətməkdən imtina etmələri və məsuliyyətə yalnız icraçının cəlb olunmasıdır. Bu zaman əməlin tövsifi məsələsi öz həllini CM-nin 30.4-cü maddəsində tapmışdır. Maddənin birinci cümləsində təşkilatçı ilə təhrikçinin cinayəti törətməkdən könüllü imtina etmələri zamanı məsuliyyət məsələləri tənzimlənmişdir. Orada göstərilir ki, cinayətin təşkilatçısı və cinayətə təhrikçi müvafiq dövlət hakimiyyəti orqanlarına vaxtında

məlumat verməklə və ya digər tədbirlər görməklə icraçı tərəfindən cinayətin başa çatdırılmasını aradan qaldırdıqları halda, cinayət məsuliyyətinə cəlb olunmurlar. Qanunun bu müddəasına münasibətimizi bildirək.

Təhrikçi başqa şəxsi cinayət törətməyə sövq edən şəxsdir. Fikrimizi bədii şəkildə ifadə etsək, təhrikçi cinayət törətmək fikrində olmayan şəxsi cinayətkara çevirir və onun vasitəsilə ictimai münasibətlərə zərər vurur. F.Q.Burçak göstərmişdir: «Təhrikçinin əməli icraçıda cinayət törətmək qəsdinin yaranmasının səbəbi sayılır. İki hadisə: bir şəxsin təhrikçilik hərəkətləri ilə başqa şəxsdə cinayət törətməyə dair qəsdin yaranması arasında real səbəbli əlaqə təhrikçinin sonradan törətdiyi hər hansı hərəkəti ilə pozula bilməz. Təhrikçinin öz əvvəlki fəaliyyətinin neytrallaşdırılmasına yönəlmiş hərəkətlərinin mənası başqadır: bu, onun əvvəlki hərəkətlərinə və hələ baş verməmiş nəticəyə psixi münasibətinin dəyişməsini göstərir. Ona görə də, əgər təhrikçi təhrikçilik aktından sonra könüllü qaydada, şəxsi təşəbbüsü əsasında özünün əvvəlki fəaliyyətinin neytrallaşdırılması və cinayətin qarşısının alınması istiqamətində bütün tədbirləri görmüşsə, bu, onun törədilmiş əməldə təqsirlilik dərəcəsinin azalmasını subut edər» (4, 199).

A.P.Kozlov göstərmişdir ki, təhrikçinin cinayəti törətməkdən könüllü imtina etməsi o zaman mövcud ola bilər ki, onun sonrakı hərəkətləri nəticəsində icraçı cinayəti törətməyə ya başlamaqdan, ya davam etdirməkdən, ya da başa çatdırmaqdan imtina etmiş olsun (13, 305-306). Biz F.Q.Burçakın mövqeyini daha düzgün hesab edirik, lakin ona müəyyən əlavələrin edilməsini də zəruri sayırıq. Əlavəmiz haqqında aşağıda göstərəcəyik. A.P.Kozlovun mövqeyi ilə isə razılaşmadığımız məqam – onun, demək olar ki, qanunvericilik tərəfindən buraxılmış səhfi təkrar etməsidir. Fikrimizcə, qanunverici təhrikçinin cinayəti törətməkdən könüllü imtina etmə çərçivəsini genişləndirmişdir (məsələn, dövlət hakimiyyət orqanlarına hazırlanan cinayət barəsində məlumat verilməsi). Əgər icraçı təhrikçinin sonradan həyata keçirmiş olduğu hərəkətləri nəticəsində cinayəti törətməkdən imtina edərsə, onda burada başa çatmamış iştirakçılıq mövcud olacaqdır və hər ikisinin əməlində hər hansı başqa bir cinayətin tərkibi olmazsa, cinayət məsuliyyəti istisna olunacaqdır. Lakin əgər icraçı təhrikçinin sonradan həyata keçirmiş olduğu hərəkətləri nəticəsində *cinayəti davam etdirməkdən və ya başa çatdırmaqdan imtina edərsə* (kursiv mənə məxsusdur – N.Ə.), burada təhrikçinin cinayəti törətməkdən könüllü imtina etməsindən söhbət gedə bilməz. Könüllü imtina təhrikçinin öz təhrikçilik fəaliyyətindən tam imtina etməsi, bu fəaliyyətin nəticələrini tam ləğv etməsi zamanı mümkündür.

Təşkilatçının cinayəti törətməkdən könüllü imtina etməsi zamanı da əməlin tövsifi sadə deyildir. Qanun belə hallarda təşkilatçı ilə təhrikçinin əməlinin tövsifi üçün eyni şərtlər müəyyən etmişdir. Halbuki təşkilatçı və təhrikçi müxtəlif funksiyaları yerinə yetirirlər. Təhrikçi adətən cinayət törətməmiş şəxsləri cinayətə sövq etməyə meyl göstərir, təşkilatçı isə cinayətin planlaşdırılması, digər iştirakçıların əməllərinin uzlaşdırılması, əlaqələndirilməsi funksiyasını yerinə yetirir və çox zaman artıq cinayət törətmiş şəxslərdən istifadə etməyə meyl göstərir. Bu mənada təşkilatçı üçün təhrikçi ilə müqayisədə cinayətin törədilməsindən könüllü imtina etmə müəyyən dərəcədə çətindir.

Cinayətin təşkilatçısının və təhrikçisinin cinayətin törədilməsi üçün əlverişli şəraiti aradan qaldıran hərəkətlərinə baxmayaraq, icraçı cinayətin törədilməsini başa çatdırırsa, belə hallarda cinayətin təşkilatçısı və təhrikçisi məsuliyyətdən azad edilmir. Lakin onların cinayətdən könüllü imtina etməyə yönələn fəaliyyətləri cəzanı yüngül-

ləşdirən hal qismində nəzərə alınmalıdır.

CM-nin 30.4-cü maddəsinin 2-ci cümləsində köməkçinin cinayət törətməkdən könüllü imtina etməsi zamanı məsuliyyət məsələsi həll olunmuşdur. Həmin maddəyə əsasən köməkçi, bilavasitə cinayət törətməyə yönəlmiş əməllər başlananadək icraçıya qabaqcadan vəd olunmuş köməkdən imtina etmişdirsə və ya artıq göstərilmiş köməyin nəticələrini aradan qaldırmışdırsa, cinayət məsuliyytinə cəlb olunmur. Fikrimizcə, qanunda təşkilatçı və təhrikçi ilə müqayisədə köməkçinin cinayəti törətməkdən könüllü imtina etməsi zamanı məsuliyyət məsələsi daha dəqiq tənzim olunmuşdur. Yeri gəlmişkən qeyd edək ki, respublikamızın qüvvədə olan cinayət qanunu üçün baza rolunu oynamış Rusiya Federasiyasının (bundan sonra – RF) qüvvədə olan 1996-cı il CM-də köməkçinin cinayət törətməkdən könüllü imtina etməsi zamanı məsuliyyət məsələsi fərqli qaydada həll olunmuşdur. Belə ki, həmin ölkənin CM-nin 31-ci maddəsinin 4-cü hissəsinə görə köməkçi cinayətin törədilməsinin qarşısını almaqdan ötrü özündən asılı olan bütün tədbirləri görmüşsə, cinayət məsuliyyətinə cəlb olunmur. Respublikamızın CM-nin 30.4-cü maddəsinin məzmununa görə isə əgər köməkçi icraçıya artıq göstərmiş olduğu köməyin nəticələrinin aradan qaldırılması üçün mümkün olan bütün tədbirləri görməsinə baxmayaraq buna nail ola bilmədikdə, əməlində cinayəti törətməkdən könüllü imtina etmə əlaməti mövcud olmur və məsuliyyəti ümumi əsaslarla və qaydada həll olunur.

Nəzəriyyədə bu məsələyə dair fərqli mövqe ortaya qoyulmuşdur. Məsələn, prof. F.Y.Səməndərov göstərmişdir ki, köməkçinin icraçıya vəd etdiyi xidmət icraçının fəaliyyəti ilə səbəbli əlaqədə olur. Əgər köməkçi maneələri aradan qaldıracağını, cinayət yolu ilə əldə edilən predmetləri gizlədəcəyini əvvəlcədən vəd etmişdirsə, icraçı cinayəti etmək üçün çox halda göstəriləcək belə köməyə ümid bağlayır, ona arxalanır. Köməkçi vəd etdiyi hərəkətlərdən könüllü imtana edirsə, əməl başlanana qədər vəd edilən köməyin göstərilməcəyini icraçıya qəti bildirməlidir. Əgər köməkçi müəyyən alət və vasitə verməklə icraçıya kömək etmişdirsə, lakin sonradan belə köməkdən imtina edərsə, o, icraçıya verdiyi alət və vasitəni geri almalıdır. İcraçı köməkdən məhrum olmasına baxmayaraq cinayəti törədirsə, məsələn, odlu silah geri alındığından soyuq silahla adam öldürürsə, belə vəziyyət köməkçinin könüllü imtina etməyə görə məsuliyyətdən azad edilməsinə mane ola bilməz (3, 371-373).

Ədəbiyyatda köməkçiliyin ənənəvi olaraq fiziki və intellektual köməkçiliyə bölünməsinə uyğun olaraq, əməlinin təhrikçinin əməlinə oxşar qaydada tövsif olunması təklif olunmuşdur (4, 200). Biz bunu düzgün yanaşma hesab etmirik. Çünki köməkçilik və təhrikçilik mahiyyət etibarilə ayrı-ayrı funksiyalardır. Köməkçi artıq cinayət törətmək niyyətində olan və ya təhrikçi tərəfindən cinayət törətməyə artıq razılaşdırılmış şəxsə müvafiq cinayəti törətməsi üçün müəyyən fəaliyyəti ilə yalnız yardım göstərir.

A.P.Kozlov RF CM-də iştirakçıların cinayəti törətməkdən könüllü imtina etmələrini nəzərdə tutan 31-ci maddənin 4-cü hissəsinin aşağıdakı redaksiyada verilməsini təklif etmişdir: «Təşkilatçının cinayəti törətməkdən könüllü imtina etməsi təşkil etdiyi cinayətin ictimai təhlükəli zərərinin baş verməsinin qarşısının alınmasında ifadə olunur. Təhrikçinin cinayəti törətməkdən könüllü imtina etməsi təhrik etdiyi şəxsin cinayət törətməkdən imtina etməsinə sövq etməsində və bununla da ictimai təhlükəli zərərin qarşısının alınmasında ifadə olunur. Köməkçinin cinayəti törətməkdən könüllü imtina etməsi digər iştirakçılar tərəfindən cinayətin davam etdirilməsi zamanı göstərmiş olduğu yardımından istifadə olunmasına qədər onun nəticələrinin ləğv olun-

masında ifadə olunur» (13, 308). Hesab edirik ki, müəllifin təklif etdiyi redaksiya ümumi məzmunlu olduğundan, kifayət qədər konkret və dəqiq olmadığından, qanunun aydın şərh olunmasına və ən əsası isə düzgün tətbiqinə imkan verməyəcəkdir.

Biz respublikamızın CM-nin 30.4-cü maddəsində iştirakçıların cinayəti törətməkdən könüllü imtina etmələri zamanı məsuliyyət məsələlərinin daha uğurlu şəkildə həll olunduğu qənaətindəyik. Hesab edirik ki, milli qanunumuzda bu məsələ həm cinayəti törətməkdən könüllü imtina etmə institutunun ruhuna uyğun, həm də daha aydın və konkret həll olunmuşdur. Bununla belə, CM-nin 30.4-cü maddəsində razılaşmadığımız bir məqamı diqqətə çatdırmaq istəyirik. Maddəyə əsasən cinayətin təşkilatçısı və cinayətə təhrikçi müvafiq dövlət hakimiyyəti orqanlarına vaxtında məlumat verməklə və ya digər tədbirlər görməklə icraçı tərəfindən cinayətin *başa çatdırılmasını* (kursiv mənə məxsusdur – N.Ə.) aradan qaldırdıqları halda, cinayət məsuliyyətinə cəlb olunmurlar. Maddənin məzmununa görə icraçının bilavasitə cinayət törətməyə yönəldilmiş qəsdən edilən əməli, onun iradəsindən asılı olmayan səbəblərə görə (cinayətin təşkilatçısının və təhrikçisinin göstərilən səyləri nəticəsində) başa çatdırılmamışdırsa, yəni icraçı tərəfindən cinayət etməyə cəhd faktı mövcud olduqda təşkilatçı və təhrikçi cinayət məsuliyyətinə cəlb oluna bilməz. Hesab edirik ki, qanunun bu müddəası cinayəti törətməkdən könüllü imtina etmə institutunun mahiyyətinə ziddir.

Fikrimizi izah etmək üçün sadə bir misal gətirək. Qəsdən adam öldürmə cinayətinin təşkilatçısı və ya təhrikçisi tərəfindən vaxtında polis orqanına bu cinayət barədə məlumat verildiyindən, icraçı tərəfindən zərərçəkmişin xüsusi amansızlıqla (məsələn, bədən orqanlarının hissə-hissə kəsilməsi) öldürülməsinin qarşısı alınır, icraçı cinayət başında yaxalandığından cinayəti başa çatdıra bilmir, lakin zərərçəkmişin müəyyən orqanlarını artıq kəsmiş olur. Zərərçəkmiş polis tərəfindən xəstəxanaya çatdırılır, həkimlərin səyi hesabına həyatdan məhrum olmur. Qüvvədə olan CM-nə görə burada icraçının əməli 29, 120.2.4-cü maddə ilə tövsif olunmalıdır, 30.4-cü maddə isə cinayətin təşkilatçısının və təhrikçisinin məsuliyyətini istisna edir. Məsuliyyətin bu cür həlli aşkar ədalətsizlikdir. Digər tərəfdən, qanunvericiliyin belə mövqeyi iştirakçılıqla törədilən cinayətlərdə bəzən icraçıdan daha təhlükəli olan təşkilatçıların və ya təhrikçilərin cinayət məsuliyyətindən kənarda qalmalarına şərait yaradır. Bura hüquq mühafizə orqanlarının fəaliyyətində mövcud olan bəzi neqativ halları da əlavə etsək, məsələnin ciddiliyi daha aydın görünər.

Hesab edirik ki, müvafiq dövlət hakimiyyəti orqanlarına vaxtında məlumat verməklə və ya digər tədbirlər görməklə icraçı tərəfindən cinayətin başa çatdırılmasını aradan qaldırma cinayəti törətməkdən hissəvi könüllü imtina sayılmalıdır və buna uyğun hüquqi nəticəyə səbəb olmaqla cəzanın təyin edilməsi zamanı yüngülləşdirici hal kimi nəzərə alınmalıdır. Qeyd edilənlərə əsasən CM-nin 30.4-cü maddəsinin mətnində olan «başa çatdırılmasını» ifadəsinin «törədilməsini» sözü ilə əvəz olunmasını təklif edirik.

Cinayət törətməkdən könüllü imtina etmə zamanı tövsifdə dolaşıqlıq yarada bilən digər məqam onu nəzərdə tutan 30-cu maddənin «Cinayətdə iştirakçılıq» adlanan 7-ci fəsildə deyil, «Başa çatmayan cinayət» adlanan 6-cı fəsildə yerləşdirilməsidir. A.P.Kozlov qeyd etmişdir ki, cinayət törətməkdən könüllü imtina etmə məsələsinə başa çatmayan cinayət çərçivəsində baxılmalıdır (12, 172). Biz də hesab edirik ki, 30-cu maddənin 6-cı fəsildə yerləşdirilməsinin məntiqi əsası vardır. Çünki burada söhbət başa çatdırılmamış fəaliyyətdən gedir. Lakin təkcə bu məqama görə həmin maddənin 6-cı fəsildə yerləşdirilməsini tam əsaslı olduğunu söyləmək olmaz. Belə ki, həmin

fəsildə başa çatmayan cinayət ilə yanaşı digər məsələlər, məsələn, başa çatmış cinayət və iştirakçılığa görə məsuliyyət məsələləri də tənzim olunmuşdur. 6-cı fəslə daxil olan 27.1-ci maddədə başa çatmış cinayətə anlayış verilmişdir, 30.4-cü maddə isə bilavasitə cinayətin iştirakçılarının məsuliyyət məsələsinə həsr olunmuşdur. Ona görə də 30-cu maddənin CM-nin 7-ci fəslinə gətirilib, icraçının ekstsessinə həsr olunmuş 35-ci maddənin yerində yerləşdirilməsi, 31, 32, 33, 34 və 35-ci maddələrin isə müvafiq ardıcıllıqla 30, 31, 32, 33 və 34-cü maddəllərdə yerləşdirilməsini məqsədəuyğun hesab edirik.

Başa çatmayan iştirakçılıq zamanı iştirakçıların əməllərinin tövsifi də asan məsələlərdən sayılmır. İştirakçılıq fəaliyyəti həm təbii, təsadüfi qaydada, həm də şüurlu təsir nəticəsində başa çatdırılmaya bilər. Məsələn, cinayətin bir iştirakçısı əməlin törədilməsi gününə qədər avtoqəzaya düşərək ağır xəsarət ala bilər və bu səbəbdən cinayət törədilən gün xəstəxanada müalicə almaq məcburiyyətində qala bilər, yaxud birgə cinayət törətməyə razılaşmış şəxs əvvəllər törətmiş olduğu başqa bir cinayətə görə polis tərəfindən yaxalana bilər və bu səbəbdən razılaşmış olduğu cinayətdə iştirak edə bilməz. Belə hallarda razılaşdırılmış cinayət çox zaman həyata keçirilmədiyindən mövcud olmuş iştirakçılıq latent qalır, lakin onu aşkar etmək də mümkün olur. Hüquq mühafizə orqanları belə halları çox zaman cinayətin törədilməsindən sonra müəyyən edirlər. Cinayətin hər hansı bir iştirakçısı müəyyən məqamda cinayətdə iştirak etməkdən imtina etməsinə baxmayaraq, yenidən birgə cinayət fəaliyyətini həyata keçirmək üçün qayıdırsa, bu zaman iştirakçılığın təbii surətdə başa çatmamasından söhbət gedə bilməz və məsuliyyət məsələsi ümumi əsaslarla həll olunmalıdır. Təbii qaydada başa çatmayan iştirakçılıq zamanı iştirakçıların məsuliyyət məsələsinin düzgün həlli üçün iştirakçılıq ilə başa çatmayan cinayət anlayışlarının qarşılıqlı əlaqələndirilməsi lazım gəlir.

Şüurlu təsir nəticəsində başa çatmamış iştirakçılıq zamanı hadisələrin inkişafının müxtəlif variantları mümkündür. Müəyyən halda hüquq mühafizə orqanları iştirakçılıqla törədilməsi planlaşdırılmış cinayət fəaliyyətinin qarşısını aldığından kriminal əməl ümumən başa çatdırılmır və hər bir iştirakçının əməli başa çatmayan cinayət kimi tövsif olunur. Müəyyən halda isə hüquq mühafizə orqanları cinayətin bütün iştirakçılarının deyil, yalnız birinin (və ya bir neçəsinin) əməlinin qarşısını ala bildiklərindən, son nəticədə cinayət törədilmiş olur. Təbii ki, bu zaman fəaliyyətinin qarşısı alınmış iştirakçının (və ya iştirakçıların) əməli başa çatmayan cinayətdə iştirakçılıq kimi, cinayəti törətməyi başa çatdırmış şəxslərin əməli isə başa çatmış cinayətdə iştirakçılıq kimi tövsif olunmalıdır.

Diqqət yetirilməsi zəruri olan məqamlardan biri icraçının cinayəti törətməkdən könüllü imtina etməsi zamanı onun və digər iştirakçıların əməllərinin tövsifi məsələsidir. Bu zaman əsas çətinlik cinayət törətməkdən imtina etməmiş iştirakçıların əməllərinin tövsifi zamanı yaranır. Ənənəvi mövqeyə görə, belə iştirakçıların əməlləri cinayətə hazırlıq kimi tövsif olunur; çünki icraçı cinayəti törətməkdən imtina etdiyindən ümumi ictimai təhlükəli nəticə baş vermir. CM-nin 33.5-ci maddəsinin ikinci cümləsi də belə nəticəyə gəlməyə əsas verir: «Öz iradəsindən asılı olmayan səbəblərdən başqa şəxsləri cinayətin törədilməsinə təhrik etməyə nail olmayan şəxs də cinayətə hazırlığa görə cinayət məsuliyyətinə cəlb edilir». Burada maraqlı məqam mövcud olmuş və hansısa dərəcədə həyata keçirilmiş iştirakçılığın taleyidir. Məsələn, fərz edək ki, təhrikçi köməkçini icraçıya yardım göstərməyə sövq etmişdir, köməkçi icraçıya cinayətin törədilməsi alətini vermişdir, icraçı isə son anda cinayəti törətmək-

dən imtina etmişdir. Fikrimizcə, bu suala cavab verməkdən ötrü aşağıdakı məsələləri nəzərə almaq lazımdır:

1. İştirakçılıq və başa çatmayan cinayət cinayət hüququnun iki müstəqil institutu olduğundan, öz hüquqi təbiətlərinə görə bir-birini əvəz edə bilmir və bu səbəbdən tövsif zamanı əmələ yalnız başa çatmayan cinayət və ya iştirakçılıq institutunun tətbiq olunması düzgün deyildir.

2. Cinayətin iştirakçılıq qaydasında, daha dəqiq desək, iştirakçılığın formalarından sayılan qabaqcadan əlbir olmuş bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik tərəfindən törədilməsi cəzanı ağırlaşdıran hal qismində çıxış etdiyi halda (CM-nin 61.1.3-cü maddəsi), başa çatmayan cinayətə görə ya məsuliyyət istisna olunur (CM-nin 30-cu maddəsi), ya da cəza yüngülləşdirilir (CM-nin 63-cü maddəsi). Düşünürük ki, belə hallarda əməlin tövsifi üçün CM-nin iştirakçılıq və başa çatmayan cinayət fəaliyyəti tənzim edən normaların birgə, məcmu qaydada tətbiq edilməsi daha düzgün mövqe sayılmalıdır. Başqa sözlə, törədilmiş konkret cinayət əməlində həm başa çatmamış cinayətin, həm də iştirakçılığın əlamətlərinin mövcud olduğunu qəbul etmək lazımdır. Əks halda, məsələn, tövsifdə iştirakçılığın istisna olunması cinayət törətməkdən könüllü imtina etmiş icraçının bu fəaliyyətinə heç bir aidiyyəti olmayan digər iştirakçıların əsassız olaraq cinayət məsuliyyətindən kənarda qalmalarına gətirib çıxarar.

Qeyd edilən situasiyada maraqlı məqamlardan biri reallıqda həm böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətlərin törədilməsinə hazırlıq hərəkətlərinin, həm də bu hərəkətlərdə iştirakçılığın faktik surətdə mövcud olduğu təqdirdə əməlin tövsifidir. İcraçı qeyd edilən cinayətləri törətməkdən könüllü imtina etdikdə, iştirakçıların məsuliyyət məsələsi necə həll olunmalıdır? A.P.Kozlov bu məsələnin düzgün həlli üçün aşağıdakı suala cavab verilməsinin zəruri olduğunu göstərmişdir: cinayət hüququnun iki müstəqil institutundan hansı birinə: başa çatmayan cinayətə, yoxsa iştirakçılığa üstünlük verilməlidir? Müəllif göstərmişdir ki, ictimai təhlükəli əməlin başa çatması və ya başa çatmaması bilavasitə cinayət əməlinin özünü, iştirakçılıq isə cinayətin törədilməsi zamanı şəxslərin birləşməsini xarakterizə etdiyindən, üstünlük başa çatmayan cinayət institutuna verilməlidir (13, 311).

Fikrimizcə, belə epizodda araşdırılmağa ehtiyacı olan əsas məsələ iştirakçılıqla törədilmiş əməldə cinayət faktının olub-olmamasıdır. Əgər törədilmiş əməldə cinayət faktı yoxdursa, orda iştirakçılıq faktının araşdırılmasına da ehtiyac qalmayacaqdır. CM-nin 28.2-ci maddəsinə əsasən yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq cinayət məsuliyyətinə səbəb olur. Deməli, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq hərəkətləri cinayət məsuliyyətinə səbəb olmur. Ona görə də, göstərilən kateqoriya cinayətlərin törədilməsinə iştirakçılıq qaydasında yönəlmiş hazırlıq hərəkətləri nə başa çatmayan cinayət, nə də iştirakçılıq kimi heç bir cinayət-hüquqi əhəmiyyət kəsb etməyəcəkdir.

Bəs, icraçı cinayəti törətməkdən könüllü imtina etməməsinə baxmayaraq, iradəsindən asılı olmayan səbəblərdən cinayəti başa çatdıra bilmədikdə, iştirakçıların məsuliyyəti necə həll olunur? CM-nin 33.5-ci maddəsində bu sualın cavabı verilmişdir: «İcraçı, onun iradəsindən asılı olmayan səbəblərdən cinayəti başa çatdıra bilmədikdə, digər iştirakçılar cinayətə hazırlıqda və ya cinayət etməyə cəhddə iştirakçılığa görə cinayət məsuliyyətinə cəlb edilirlər». Qanunun bu müddəasında əslində iştirakçılığın aksessor nəzəriyyəsi ifadə olunmuşlur: icraçının cinayəti başa çatdıra bilməməsi digər iştirakçıların öz funksiyalarını və ya üzərlərinə götürdükləri tapşırıqları

tam halda yerinə yetirib-yetirməmələrindən asılı olmayaraq başa çatmayan cinayətə görə məsuliyyətə cəlb olunmalarını şərtləndirir. Eyni müddəa RF CM-nin 34-cü maddəsinin 5-ci hissəsində də təsbit olunduğundan, M.İ.Kovalyov göstərmişdir ki, qanunvericiliyin bu formulu CM-də iştirakçılığın aksessor təbiətinin təsbit olunduğunu tam şəkildə nümayiş etdirir (9, 230).

Belə situasiyada iştirakçıların əməllərinin tövsifində başqa maraqlı məqamlar da ortaya çıxa bilər. Məsələn, fərz edək ki, cinayəti birgə törətməyi planlaşdırmış iştirakçılardan köməkçi cinayətin alətini hazırlamış və onu icraçıya təqdim etmiş, icraçı təhrikçinin səyi, məsələn, sövdələşmə əsasında cinayəti törətməyə razılaşmış, lakin iradəsindən asılı olmayan səbəblərdən cinayəti başa çatdıra bilməmişdir. Burada təhrikçinin əməli icraçını cinayəti törətməyə sövq etdiyi andan, köməkçinin əməli isə cinayətin alətini icraçıya verdiyi andan başa çatmışdır. Razılaşmaya görə təhrikçinin və köməkçinin həyata keçirməli digər hərəkətləri qalmamışdır, başqa sözlə, təhrikçilik və köməkçilik fəaliyyəti artıq başa çatmışdır. Belə halda onların əməllərinin də başa çatmayan cinayətdə iştirakçılıq kimi tövsif olunması nə dərəcədə düzgün və əsaslıdır? S.Y.Ulitski bununla əlaqədar göstərmişdir: «İcraçı iradəsindən asılı olmayan səbəblərdən cinayəti başa çatdıra bilmədikdə də, təhrikçi digər şəxsi başa çatmış cinayəti törətməyə sövq etməyə görə məsuliyyət daşıya bilər. Məsələnin başqa cür həlli təhrikçinin əməlinin ictimai təhlükəliliyini süni şəkildə aşağı salmağa xidmət etdiyindən hüquqi fiksiyadır» (11, 49-50).

Fikrimizcə, belə situasiyada əməlin CM-nin 33.5-ci maddəsində göstərilən qaydada tövsif olunmasını şərtləndirən başlıca səbəb iştirakçılığın əsas əlamətlərindən biri olan birgə iştirakın zəruri elementi kimi ümumi nəticənin mövcud olmamasıdır. İcraçının cinayəti başa çatdıra bilməməsi iştirakçılar üçün ümumi nəticənin yaranmasını istisna edir. Ona görə də, cinayət qanununun qeyd edilən situasiyada tövsiflə bağlı müəyyən olunmuş müddəası ilə razılaşmaq lazım gəlir.

Ədəbiyyatda icraçının iradəsindən asılı olmayan səbəblərdən cinayəti başa çatdıra bilmədikdə, digər iştirakçıların cinayət etməyə cəhdə görə məsuliyyətə cəlb edilməsinin mümkünlüyü ilə razılaşmayan mövqelərə də rast gəlinir. Məsələn, A.P.Kozlov göstərmişdir ki, təşkilatçı, təhrikçi və köməkçinin əməli cinayətin obyektiv cəhətinə daxil olmadığından heç bir vaxt icraçılıq kimi tanınmamalıdır. Bu səbəbdən qeyd edilən situasiyada onların əməli cinayət etməyə cəhddə deyil, cinayətə hazırlıqda iştirakçılıq kimi tövsif olunmalıdır (13, 313). Biz müəllifin bu mövqeyi ilə razılaşmırıq və qanunvericiliyin müddəasını düzgün hesab edirik.

İcraçının iradəsindən asılı olmayan səbəblərdən cinayət həm cinayətə hazırlıq, həm də cinayət etməyə cəhd mərhələsində başa çatdırılmaya bilər. Başa çatdırılmamış cinayətin cinayətə cəhd mərhələsində icraçının cinayət etməyə cəhdə, digər iştirakçıların isə cinayətə hazırlığa görə məsuliyyətə cəlb edilmələri əsaslı sayıla bilməz. Belə halda bütün iştirakçıların məsuliyyəti cinayət etməyə cəhdə görə yaranmalıdır. Fikrimizcə, müəllifin səhv nəticəyə gəlməsinin əsas səbəbi iştirakçılıq amilini nəzərə almamasıdır. Məlum olduğu kimi, iştirakçılar yerinə yetirdikləri funksiyalara görə müxtəlif növlərə ayrılırlar. Təşkilatçı, təhrikçi və ya köməkçi həm başa çatmış, həm də başa çatmamış cinayətdə yalnız özlərinə xas olan müvafiq funksiyaları yerinə yetirdikdə həmin statuslarını saxlayırlar, əks halda, yəni onlar cinayətin obyektiv cəhətinə daxil olan elementləri törətdikdə, icraçılıq funksiyalarını həyata keçirdikdə cinayətin icraçısına çevrilirlər. Bu səbəbdən CM-nin 33.3-cü maddəsi cinayətin təşkilatçısı, təhrikçisi və köməkçisinin əməlinin CM-nin 32-ci maddəsinə istinad edil-

məklə tövsif olunmasını nəzərdə tutur. Hesab edirik ki, A.P.Kozlovun mövqeyi həmçinin cinayətin iştirakçılarının məsuliyyətinin əsassız olaraq azaldılmasına gətirib çıxara bilər.

Yeri gəlmişkən, bu məsələ ilə əlaqədar Azərbaycan Respublikası CM-nin mövqeyinin RF CM-dən daha əsaslı olduğunu diqqətə çatdırmaq istəyirik. RF CM-nin 34-cü maddəsinin 5-ci hissəsinə əsasən icraçı, onun iradəsindən asılı olmayan səbəblərdən cinayəti başa çatdıra bilmədikdə, digər iştirakçılar cinayətə hazırlığa və ya cinayət etməyə cəhdə görə cinayət məsuliyyətinə cəlb edilirlər. Beləliklə, RF CM-də bu situasiyada iştirakçılığın mövcudluğu istisna olunmuşdur, halbuki burada başa çatmamış cinayət ilə yanaşı, icraçının cinayət əməlinin dayandırılmasına qədər olan vaxtda faktik olaraq real iştirakçılıq mövcud olmuşdur. Ona görə də, respublikamızın CM-nin 33.5-ci maddəsinin bu məsələ üzrə mövqeyini daha düzgün hesab edirik.

Qeyd etmək lazımdır ki, iştirakçılar arasında funksional əlaqənin sıxlığı və dərinliyi iştirakçılığın tövsifinə birbaşa təsir göstərmir. Funksional əlaqənin sıxlığı və dərinliyi iştirakçılığın formalarında təzahür edir və bu yol ilə tövsifə öz təsirini göstərir. İştirakçıların hərəkətləri ilə ümumi nəticə arasında obyektiv əlaqənin xarakteri də ümumən iştirakçılığın tövsifinə təsir göstərmir.

Misal gətirək. A., B. və Q. I və II instansiya məhkəmələri tərəfindən qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilən qəsdən adam öldürmə əməlinin törədilməsinə görə (CM-nin 120.2.1-ci maddəsi) məhkum olunmuşlar. Ali Məhkəmənin Cinayət işləri üzrə məhkəmə kollegiyasında işə baxılarkən müəyyən olunmuşdur ki, C.-nin qəsdən öldürülməsində Q.-nin iştirakı əvvəlcədən planlaşdırılmış razılıq əsasında yalnız zərərçəkmişin idarə etmiş olduğu maşını gizlətməkdən ibarət olmuşdur. Ona görə də kassasiya məhkəməsi hökmdə dəyişiklik edərək Q.-nin əməlini CM-nin 32, 120.2.1-ci maddəsi ilə tövsif etmişdir (1).

B.A.Kurinov iştirakçılığın formalarından asılı olaraq tövsif olunmasını təklif etmiş və bu məqsədlə iştirakçılığın aşağıdakı formalarını ayırmışdır: birgə icraçılıq, rolların bölgüsü ilə olan iştirakçılıq, əvvəlcədən əlbir olmayan iştirakçılıq, əvvəlcədən əlbir olan iştirakçılıq, mütəşəkkil dəstə və cinayətkar birlik. Müəllifə görə, özgə əmlakı əgər əvvəlcədən əlbir olmayan birgə icraçılar tərəfindən talanırsa, əməl maddənin əsas tərkibi ilə, əvvəlcədən əlbir olmuş birgə icraçılar tərəfindən talanırsa, normanın məsuliyyəti ağırlaşdıran əlaməti ilə tövsif olunmalıdır (6, 92). Fikrimizcə, müəllif iştirakçılığın formaları çərçivəsində əsassız olaraq onun həm növlərini, həm də formalarını birləşdirmiş, bununla da iştirakçılıqla törədilən cinayətlərin tövsifi şərtlərini bir-birinə qarışdırmışdır.

A.P.Kozlov iştirakçılıqla törədilən cinayətlərin tövsifində əsas şərtin törədilmiş əməldə elementar iştirakçılığın və ya cinayətkar qrupun mövcudluğunun müəyyənləşdirilməsi olduğunu göstərmişdir. Müəllifə görə, əgər əməldə elementar iştirakçılığın əlamətləri vardırsa, icraçıdan başqa qalan bütün iştirakçıların əməli CM-nin 32-ci maddəsinə istinad edilməklə tövsif olunmalıdır. Əgər qanunda nəzərdə tutulmuş cinayətkar qrupun hər hansı bir növü ilə cinayət törədilmişsə, onda müvafiq cinayətin belə qrup tərəfindən törədilməsinin CM-nin Xüsusi hissəsinin normasında məsuliyyəti ağırlaşdıran hal qismində təsbit olunub-olunmamasından asılı olmayaraq, qrupun bütün üzvlərinin əməli CM-nin 32-ci maddəsinə istinad edilmədən, bilavasitə Xüsusi hissənin müvafiq norması ilə tövsif olunmalıdır (13, 317).

Fikrimizcə, birgə törədilmiş cinayətin bəzi iştirakçılarının əməllərində elementar, başqa sözlə, rolların bölgüsü ilə olan iştirakçılğın, digərlərinin əməlində isə qrup

cinayətinin əlamətləri mövcud olduqda, birincilərin əməli CM-nin 32-ci maddəsinə istinad edilməklə, ikincilərin əməli isə həmin maddəyə istinad edilmədən, CM-nin Xüsusi hissəsində nəzərdə tutulmuş müvafiq maddə ilə tövsif olunmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi: Cinayət işi № 1 (101)-11, 2003.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2006, 416 s.
3. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə: Ali məktəblər üçün dərslik. Bakı: Hüquq ədəbiyyatı, 2002, 736 s.
4. Бурчак Ф.Г. Учение о соучастии по советскому уголовному праву. Киев: Наукова думка, 1969, 214 с.
5. Кузнецова Н.Ф. Проблемы квалификации преступлений: Лекции по спецкурсу «Основы квалификации преступлений» / Науч. ред. и предисл. академика В.Н.Кудрявцева. М.: Издательский Дом «Городец», 2007, 336 с.
6. Куринов Б.А. Квалификация преступлений, совершенных в соучастии // Советское государство и право. 1984, № 11, с. 90-96.
7. Российское уголовное право. В 2-х т. Т. I. Обшая часть / Под ред. проф. А.И.Рарога. И.: Профобразование, 2002, 600 с.
8. Самедова Ш.Т. Классификация преступлений в уголовном праве Азербайджанской Республики: проблемы и решения. Автореф. дис. …канд. юр. наук, Баку: 2003, 33 с.
9. Уголовное право. Общая часть / Под ред. М.И.Ковалева. М.: НОРМА, 2000, 560 с.
10. Уголовный кодекс Российской Федерации. М.: ТК Велби, 2004, 176 с.
11. Улицкий С.Я. Некоторые спорные вопросы учения о соучастии // Совершенствование правовых мер борьбы с преступностью. Владивосток: 1986, с. 47-53.
12. Козлов А.П. Неоконченное преступление: Учеб. пособие. Красноярск: Красноярский Государственный Университет, 1999, 182 с.
13. Козлов А.П. Соучастие: традиции и реальность. СПб.: Юридический центр Пресс, 2001, 362 с.


## КВАЛИФИКАЦИЯ СОУЧАСТИЯ НА ОСНОВАНИИ ПОЛОЖЕНИЙ ОБЩЕЙ ЧАСТИ УГОЛОВНОГО КОДЕКСА

**Н.К.АЛИЕВ**

### РЕЗЮМЕ

Ответственность соучастников определяется характером и степенью фактического участия каждого из них в совершении преступления. В статье исследуются вопросы квалификации действия соучастников при пресеченной деятельности исполнителя, а также при добровольном отказе исполнителя и иных соучастников от совершения преступления. Предлагаются соответствующие изменения для дальнейшего усовершенствования действующего УК Азербайджанской Республики.

## QUALIFICATION PROBLEMS OF PARTICIPATION ON THE TENETS OF THE GENERAL PART OF THE CRIMINAL CODE

**N.K.ALIYEV**

### SUMMARY

According to article 33.1 of the Criminal Code amenability of criminals depends on the extent and character of factual participation of each participator. Problems of qualification of participators' actions are analyzed and suggestions pointing out improvement of the legislation in case of free-will non-participation in crime and supressed participation are presented in the article.